# Yeni şeirlər

***Rayonumuzda öz dəsti-xətti ilə tanınan şair Şərif Tahirli keçən həftə redaksiyamızın qonağı olmuşdur. O, bir neçə şerini redaksiyaya ərməğan etmişdir. Onları oxuculara təqdim edirik.***

## Ey dost

Namərdə əl açma, mənliyin itər,
Namərdin namərtdək adı var, ey dost.
Ərik şirin olur, narsa turşməzə,
Hər meyvənin ayrı dadı var, ey dost.

* * *

Canınla, pulunla özünü öymə,
Elə et, bir zaman dizinə döymə.
Heç kimi incitmə, heç kimi söymə,
Hərənin yaxını, yadı var, ey dost.

* * *

Tahirli, inşallah çatılmaz qaşın,
Hamının yanında ucadır başın.
Səksən beş olacaq gələn il yaşın,
Doxsana çatmağın xodu var, ey dost.

## Ola bilməz

Gah səni, gah onu sevirsə bir qız,
O qızdan səninçün yar ola bilməz.
Meyvə gətirməyən yaşıl söyüdə
On yerdən calaq vur, bar ola bilməz.

* * *

Üzüyü qiymətli edər yalnız qaş,
Bəraət qazanmaz gözdən axan yaş
Mərdin mərdliyinə hamı əyər baş,
Mərd namərd önündə xar ola bilməz.

* * *

Yaltağa inanma, sözü saxtadır,
Ürək sol sinədə, qızıl taxdadır.
Sibirdə il boyu soyuq, şaxtadır,
Ekvator xəttində qar ola bilməz.

* * *

Tar olan məclisdə milli qayda var.
Müğənni oxuyar, tar-kaman çalar.
Tahirli bunu da xalqa edir car;
Zurna dəsgahında tar ola bilməz.

## Qorxuram

Pələngdən qorxmuram, şirdən qorxmuram,
Böhtandan qorxuram, şərdən qorxuram.
Alında quruyan tərə nə var ki,
Bədəndə quruyan tərdən qorxuram.

* * *

Yalan danışmağa etməyin adət,
Dinin düşmənidir yalanla qeybət.
Yadıma düşdükcə, cəhənnəm, cənnət
Xəta etməyimə hərdən qorxuram.

* * *

Zər altıüzlüdür, ehtiyatlı ol,
Fərqi yox, taxtada eynidir sağ-sol.
Qalib gəlmək üçün oyunda hər yol,
Özümdən qorxmuram, zərdən qorxuram.

* * *

Qurani-Kərimi göndərdi Allah,
İslam dünyasına nur saçdı vallah.
—Qiyamət günündə əşhədübillah
Hara düşəcəyim yerdən qorxuram.

# Futbol

## Qəbələdə daha bir fan-klub

Futbol komandalarının güclü azarkeş dəstəyinə daim ehtiyacı duyulur. Qəbələdə fəaliyyət göstərən fan-klub da həmişə öz fəallığı ilə seçilib. Oyunların harada keçirilməsindən asılı olmayaraq peşəkar «Qəbələ» futbol komandasının fan-klubu həmişə onun yanında olub, onu dəstəkləyib, yeni-yeni qələbələrə ruhlandırıb. Bu yaxınlarda isə «Qəbələ» futbol klubunda ikinci bir fan-klub fəaliyyətə başlayıb. İndi burada azarkeşlik edənlərin sayı 50 nəfərə çatır.

Qəbələdə fəaliyyət göstərən birinci fan-klub həm ev, həm də səfər oyunlarında həmişə komandanın yanında olub, stadionda azarkeşlik etdiyi komandanın uğuru üçün əlindən gələn köməkliyi əsirgəməyib. Bu klub Azərbaycanın öncüllərindəndir. Öz nizam-intizamı, səmimiliyi ilə həmişə digərlərindən seçilib. Azarkeşin stadionda nümunəvi davranışı həmişə doğma komandaya dəstəkdir. Məktəblilər bu işdə komandaya hər zaman yardımçı olub.

Adətən yenicə yaradılmış ikinci fan-klub başqa bir sektorda qərarlaşır ki, bunun sayəsində stadionda daha fərqli bir əhval-ruhiyyə yaranır.

Ölkəmizdə fəaliyyətdə olan fan-klubların durumu bizə yaxşı məlumdur. Onların çoxu əksər hallarda doğma komandasına üz ağlığı gətirmir. Əksinə, öz komandasının maddi durumuna xələl gətirir, onu bəzən tamaşaçısız stadionlarda oynamaq məcburiyyətində qoyur. Şükürlər olsun ki, bizim hər iki fan-klubumuz bu cür nöqsanlardan uzaqdır. Qoy həmişə belə olsun!

**«QƏBƏLƏ».**

## ELAN

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarla Vəndam qəsəbə sakini Paşayev Sərdar Sabir oğlunun adına verilmiş JN 1394 №-li (kod 40600048) Torpağın mülkiyyətə hüququna dair Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

## Daxili işlər naziri Şəki şəhərində vətəndaşlarla görüşəcəkdir

Daxili işlər naziri, general-polkovnik Ramil Usubov aprelin 20-də Şəki şəhərində Balakən, Qax, Zaqatala, Oğuz rayonlarından, habelə Qəbələ və Şəki şəhərindən olan vətəndaşlarla görüşəcəkdir.

Vətəndaşlarla görüş saat 11⁰⁰-da başlanacaqdır.

Qəbulla bağlı müraciət edənlər Qəbələ Rayon Polis Şöbəsində qeydiyyata alınırlar.

Qəbələ RPŞ-də telefon **(02420) 5-18-28.**

## Qənd əhvalatı

***1941—1945-ci illərdə və sonrakı bərpa illərində Böyük Vətən müharibəsinin hüznü, kədəri heç bir ailədən yan keçməsə də bəzən deyib gülməyə də yer qalırdı.***

Müharibə vaxtı kasadlıq idi.
Çox az-az tapırdı kasıblar qəndi.
Yığışıb bir yerə bir gün qohumlar
Xeyir məclisində süfrə açdılar.
Onlar qonşu kənddən qız almışdılar.
Qohumlar hörmətlə qarşılandılar.
Süfrəyə əvvəlcə çay gətirildi,
Süfrə kasadsa da əhval şən idi.
Söhbət edirdilər deyə, gülə, şən,
Bu günkü adətdən, xeyirdən, şərdən.
Qohumlardan biri acgözdü yaman,
Çaya soyumağa verməzdi imkan.
Gördü ki, çox xırda doğranıbdı qənd,
Odur ki, işlətdi burda yeni fənd.
Qəndi iki-iki atır ağzına,
Baxmırdı məclisdə baxan var ona.
Biri sual verdi ona xəbərsiz.
Necə dəfn edirsiz ölüləri siz?
Qonaq da sən demə çoxbilmiş idi,
Odur ki, cavabı gecikdirmədi:
Belə cavab verdi ona həvəzsiz,
Böyükləri bir-bir, kiçiklərisə
İkisin bir yerə dəfn edirik biz.

**Mirzəbala YEDİYAROV,**
**Bılıx kəndi.**

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Qəbələ Rayon Polis Şöbəsində vakant olan orta rəis heyəti vəzifələrində xidmətə qəbulla əlaqədar müsabiqə elan edir

Müsabiqə aşağıdakı yerlər üzrə test imtahanlarından və müsahibədən ibarətdir:

**1. Cinayət-axtarış üzrə əməliyyat müvəkkili vəzifəsinə (hüquqşünaslar üçün).**

**2. Polis sahə inspektoru vəzifəsinə (hüquqşünaslar üçün).**

Müsabiqədə dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası almış, Silahlı Qüvvələrdə həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, yaşı 30-dan yuxarı olmayan, boyu kişilər üçün 165 sm-dən, qadınlar üçün 160 sm-dən yuxarı olan və «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında əsasnamə»də müəyyən olunmuş digər şərtlərə cavab verən Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Daxili işlər orqanlarında xidmətə qəbul olmaq istəyən şəxslər yaşadıqları ərazi polis orqanına müraciət edərək aşağıdakı sənədləri təqdim etməlidirlər.

**—şəxsiyyət vəsiqəsi;**
**—ali təhsil haqqında diplom;**
**—hərbi bilet (kişilər üçün);**
**—əmək kitabçası (olanlar üçün).**

Təqdim olunmuş sənədlər əsasında namizədin müsabiqədə iştirakı üçün zəruri sənədləşmə aparılır.

Müsabiqədə iştirak etmək üçün sənədlər 2013-cü il aprel ayının 1-dən may ayının 1-dək hər gün (şənbə və bazar günlərindən başqa) saat 10-dan 17-dək Qəbələ Rayon Polis Şöbəsində qəbul olunur.

Əlaqə telefonları: (024) 20518 28, (024) 205 18 22.

İnternet ünvanı: DİN-www.mia.gov.az.

## ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin direktoru Xalis Məmmədov və muzeyin kollektivi sabiq iş yoldaşları, Vəndam qəsəbə sakinəsi

**SEYİDMƏMMƏDOVA TAHİRƏ MURAD QIZININ**

vəfatı ilə əlaqədar mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

NTEV MMC Qəbələ Ticarət Kompleksinin (bazarın) kollektivi Kərimov Vasifə oğlu

**DƏYANƏTİN**

faciəli vəfatı ilə əlaqədar başsağlığı verir.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi M. Ə. Rəhimov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Nizami küçəsi, 3.
Redaktor: (024)20 5-19-14.
Ümumi: 5 - 15 - 56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
"Kapitalbank"ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet "Qəbələ" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "E-Q" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.